

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 248 (21.149)

27 dekabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 26-da Bakıda Heydər məscidinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Mərasim "Qurani-Kərim"dən ayənin oxunması ilə başladı.

Prezident İlham Əliyev mərasimdə çıxış edərək ölkəmizin həyatında əlamətdar və tarixi hadisə olan Heydər məscidinin açılışı münasibətilə təbriklərini çatdırdı.

Sonda ulu öndər Heydər Əliyevin və xanımı Zərifə Əliyevanın, o cümlədən Vətən uğrunda şəhid olanların ruhuna fatihə verildi.

Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gəldilər.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdi.

Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olundu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Heydər məscidinin açılışında iştirak etmək üçün Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gələn din xadimlərini qəbul edib.



# "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin inzibati binası istifadəyə verilmişdir





Muxtar respublikada nəqliyyat infrastrukturunun müasir standartlara uyğun qurulması dəmir yolu şəbəkəsinin də təkmilləşməsinə səbəb olmuşdur. Son illər həyata keçirilən quruculuq tədbirləri nəticəsində "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, dəmiryolçular üçün nümunəvi iş şəraiti yaradılmışdır.

Dekabrın 26-da "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Əsgərov açılış tədbirində iştirak etmişlər.

Tədbirdə çıxış edən "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev bildirmişdir ki, muxtar respublikada aparılan abadlıq-quruculuq işləri "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətini də əhatə etmişdir. Son illər sərnişinlərə nümunəvi xidmət göstərilməsi üçün Naxçıvan, Şərur, Culfa, Şahtaxtı sərnişin vağzalı binaları müasir tələblər səviyyəsində əsaslı təmir olunmuşdur. Dəmiryolçulara normal və rahat iş şəraitinin yaradılması məqsədilə cəmiyyətin inzibati binası, Yük və Sərnişin Daşımaları İdarəsinin, Təhlükəsizlik İdarəsinin inzibati binaları, Şərur, Culfa idarəetmə mərkəzləri, Culfa Lokomotiv Deposu, lokomotiv briqadalarının idarəedilməsi mərkəzi də əsaslı şəkildə yenidən qurulmuşdur. Mahir Əliyev yaradılan şəraitə görə dəmiryolçular adından minnətdarlıq etmişdir.

İnfrastruktur İdarəsinin əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar mühəndisi İbrahim Bağırov demişdir ki, bu gün muxtar respublikada dəmiryolçular üçün hər cür şəraiti olan inzibati binalar, müasir dəmir yolu vağzalları tikilərək istifadəyə verilir. Bu gün istifadəyə verilən bina da muxtar respublikada dəmir yolunun inkişafına göstərilən qayğının daha bir ifadəsidir. İbrahim Bağırov yaradılan şəraitə və göstərilən qayğıya görə Naxçıvan dəmiryolçuları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Əsgərov çıxış edərək demişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dəmir yolu nəqliyyatının inkişaf strategiyası bu gün ölkəmizdə uğurla həyata keçirilir, dəmir yolu sisteminin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bu istiqamətdə ardıcıl tədbirlər görülür, ölkəmizin dəmir yolu şəbəkəsi yenidən qurulur, bu sahədə müasir texnologiyaların tətbiqi sürətləndirilir. Bu gün Azərbaycan regionda həm də müasir dəmir yolu infrastrukturuna malik olan bir ölkə kimi tanınır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi davam etdirilir. Layihə çərçivəsində Qars-İqdır-Aralıq-Dilucu-Naxçıvan dəmir yolunun tikintisi üzrə də işlər görülür. Bütün bunlar muxtar respublikada dəmir yolu nəqliyyatının daha da müasirləşdirilməsinə imkan verəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Ölkəmizdə ümummilli lider Heydər Əliyevin yoluna sədaqətin əməli işdə olması nəticəsində bütün sahələrdə inkişafa nail olunmuş, Azərbaycan inkişaf edən ölkələrin sırasına qoşulmuşdur. Həyata keçirilən düzgün daxili siyasət bu gün ölkəmizin kompleks inkişafının əsas səbəblərindəndir".

Ali Məclisin Sədri demişdir: "Azərbaycanda digər sahələrlə yanaşı, dəmir yolu nəqliyyatının inkişafı da diqqət mərkəzindədir. Çünki dəmir yolu vacib nəqliyyat strukturu olmaqla yanaşı, həm də hər bir ölkənin milli sərvətidir. Bu sərvəti qorumaq və inkişaf etdirərək gələcək nəsillərə çatdırmaq isə qarşıda duran əsas vəzifələrdəndir. Ona görə də dəmir yolu nəqliyyatının inkişafına, bu sahənin maddi-texniki bazasının gücləndirilməsinə və müasir tələblər səviyyəsində qurulmasına daim diqqət göstərilir. Bu gün istifadəyə verilən İnfrastruktur İdarəsi də ölkəmizdə, eləcə də muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir".

Qeyd olunmuşdur ki, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsi 5 təşkilatın bazasında yaradılmışdır. Bu da idarənin əhatə etdiyi sahələrdə idarəetmənin çevik və rahat təşkilinə, xidmətin düzgün qurulmasına və hadisələrin qarşısının vaxtında alınmasına imkan verəcəkdir. Rahat iş şəraiti hər bir sahədə işin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Həyata keçirilən tədbirlər, istifadəyə verilən yeni inzibati bina 2015-ci ildə İnfrastruktur İdarəsinin əhatə etdiyi sahələrdə dönüşün yaradılmasına və işin keyfiyyətinin yüksəldilməsinə səbəb olacaqdır.

Ali Məclisin Sədri demişdir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il 6 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" qəbul edilmişdir. Ötən müddətdə proqramın qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin icrasında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinə öz köməkliyini göstərmiş, muxtar respublikanın dəmir yolu infrastrukturunun inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir".

Ali Məclisin Sədri Naxçıvanda dəmir yolunun inkişafına göstərdiyi köməkliyə görə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: "Naxçıvan bu gün blokada şəraitində yaşayır. Lakin blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına xüsusi diqqət yetirilir, bu sahə daim işlək vəziyyətdə saxlanılır.

Ardı 2-ci səhifədə

Çünki Naxçıvanın işğalçı ölkə ilə sərhəddə yerləşməsi dəmir yolu nəqliyyatının inkişafını zəruri edir. Bu gün muxtar respublikada daxili yük və sərnişin daşınmalarının həyata keçirilməsində dəmir yolunun imkanlarından geniş istifadə olunur. Digər bir tərəfdən, həyata keçirilən bu tədbirlər gələcəkdə reallaşdırılması nəzərdə tutulan Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisinə hazırlıq məqsədi daşıyır. Ona görə də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsi üçün bundan sonra da lazımi tədbirlər görüləcək, muxtar respublikada bu sahə daim diqqət və qayğı ilə əhatə olunacaqdır".

Ali Məclisin Sədri tədbir iştirakçılarını və dəmiryolçuları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmişdir.



Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Əsgərov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşlar.

Bildirilmişdir ki, muxtar respublikada müasir dəmir yolu infrastrukturunun yaradılması bu sahədə xidmətin müasir tələblərə uyğun qurulmasını şərtləndirir. İnfrastruktur İdarəsinin inzibati binasının əsaslı şəkildə yenidən qurulması da bu mənada mühüm əhəmiyyət kəsb edir. Üç mərtəbədən ibarət olan binada iş və kompüter otaqları, 120 yerlik akt zalı və yeməkxana istifadəyə verilmişdir. Binanın interyeri tamamilə yenilənmiş, otaqların hər biri müasir iş avadanlıqları ilə təmin olunmuş, videonəzarət sistemi quraşdırılmışdır.

Ərazidə maşın-mexanizmlərin təmiri sexi, qaraj və qazanxana binası da inşa olunmuşdur. Həmçinin kompleks quruculuq işləri zamanı 54 saylı Naxçıvan Dartı Yarımstansiyasının binası da təmir olunmuşdur. Binanın ətrafı da abadlaşdırılmış, 1 hektar meyvə bağı salınmışdır.

Bina ilə tanışlıqdan sonra "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinə "Naz-Lifan-X-60" markalı minik avtomobilinin açarı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub

***Yeni Azərbaycan Partiyası (YAP) Şərur Rayon Təşkilatında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilib.***

Qeyd olunub ki, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən dünya azərbaycanlılarının həmrəylik və birlik ideyasını dövlət siyasəti səviyyəsinə qaldırmış ulu öndər Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etmələri, doğma Vətənlə əlaqələrinin genişləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır, onların problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etmək üçün özünün siyasi təcrübəsindən və dövlətin imkanlarından yetərincə istifadə edirdi. Ümummilli liderin göstərdiyi səylər dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların milli birlik və həmrəylik hislərinin güclənməsi, milli ideyalar, Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşmələri üçün geniş imkanlar açıb.

2001-ci ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayından sonra diasporlarla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı birgə fəaliyyətinin əlaqələndirilməsi üçün ümummilli liderin 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında imzaladığı Fərman irəliyə doğru atılmış qətiyyətli və uğurlu addımlar oldu. "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul olunması isə bu sahədə prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən etdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə bilavasitə diaspor problemi ilə məşğul olan dövlət orqanlarının təsis edilməsi və müvafiq qanunun qəbul olunması dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirdi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması işinə təkan verdi.

2003-cü ildən ümummilli liderin daxili və xarici siyasətini ardıcıllıqla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərini daim diqqət mərkəzində saxlayır, bu prosesin daha da təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Dövlət başçısının diaspor quruculuğu sahəsində apardığı ardıcıl, davamlı və məqsədyönlü işlərin nəticəsi olaraq, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmaların sayı ildən-ilə artır.

Ölkə rəhbərinin təşəbbüsü ilə 2006-cı il mart ayının 16-da keçirilmiş Dünya Azərbaycanlılarının II və 2011-ci il iyulun 5-də baş tutan III qurultayları diasporların birləşməsi və lobbilərin fəaliyyətinin daha da gücləndirilməsi işinə əsaslı stimul olub.

Bildirilib ki, ötən dövrün ən çox yaddaqalan hadisələrindən biri də Azərbaycan Prezidentinin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diaspora İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Bu, diaspor quruculuğu sahəsində müstəqil dövlətimizin qarşısında yeni vəzifələr qoyur.

Sonra məruzə ətrafında YAP Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü Ünbülbanu Musayevanın, partiya fəallarından Fərmayıl Əsgərovun, Əli Mehdiyevin və Natəvan Hüseynovanın çıxışları olub.



***Dünən Naxçıvan Müəllimlər İnstitutunda da 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri institutun rektoru, professor Oruc Həsənli açaraq qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə müəllim və tələbələri təbrik etmişdir.***

Bildirilmişdir ki, dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyası XX əsrin sonlarına doğru Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən bu məsələnin vacibliyini nəzərə alaraq dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə təşəbbüs irəli sürmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il 16 dekabr tarixli sessiyasında dekabrın 31-nin "Dünya Azərbaycan türklərinin Həmrəylik və Birlik Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixi qərara imza atan ümummilli lider Heydər Əliyevin bu missiyası, bütünlüklə, milli diasporun formalaşmasına zəmin yaratmışdır. Müstəqillik illərində dünya azərbaycanlılarının xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, Azərbaycançılıq duyğularına əsaslanan həmrəylik ideyası ulu öndər Heydər Əliyevin sayəsində ictimai təşəbbüslərdən əməli işə, çoxşaxəli fəaliyyət planına və dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycanlıların yaşadıqları ölkələrdə təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində davamlı və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Nəticədə, xaricdəki həmvətənlərimiz arasında Azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salmış, onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verməyə başlamışlar.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyevin həmrəylik ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi töhfələrlə, ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə çalışmaqla, həmrəyliyə xidmət edən addımları ilə bütün dünya azərbaycanlılarının dərin rəğbətini qazanmışdır.

Vurğulanmışdır ki, milli birlik ideyalarını layiqincə davam etdirən ölkə başçısı cənab İlham Əliyevin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbriklər ümummilli lider Heydər Əliyevin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin dövlət səviyyəsində uğurla həyata keçirildiyini bir daha nümayiş etdirir.

Tədbirin bədii hissəsində ali təhsil ocağının tələbələrinin hazırladıqları musiqili proqram təqdim olunmuşdur.

## "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı tədbirin ikinci tirajı keçirilib



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri Vergilər nazirinin müavini Nurlan Əliyev açmışdır.*

Bildirilmişdir ki, "2013-cü ilin yekunları və qarşıda duran vəzifələr"lə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-cü il yanvarın 30-da keçirilmiş müşavirədə və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2014-cü il 28 iyun tarixdə keçirilmiş doqquzuncu sessiyasında Vergilər Nazirliyi qarşısında mühüm vəzifələr qoyulmuşdur. Belə ki, həyata keçirilən maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması və açılmış bank hesablarının fəaliyyət göstərmələrinə nəzarətin gücləndirilməsi, nağdsız ödənişlərin həcminin əhəmiyyətli şəkildə artırılması, POS-terminallardan səmərəli istifadənin təmin edilməsi, xidmət və ticarət obyektlərinin böyük əksəriyyətində POS-terminalların quraşdırılmasının qısa müddətdə başa çatdırılması, əhalinin bu xidmətdən istifadə etməsi üçün müxtəlif həvəsləndirici təkliflərin təqdim olunması tapşırılmışdır.

Görülmüş tədbirlər nəticəsində muxtar respublika üzrə cari ilin yanvar ayında nağdsız ödənişlərin həcmi 246,0 min manat olduğu halda, noyabr ayında bu məbləğ 1 milyon 661 min manata çatdırılmışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı həvəsləndirici tədbirin keçirilməsi nəzərdə tutulmuşdur. Vergilər Nazirliyi tərəfindən əvvəllər də bir sıra həvəsləndirici tədbirlər keçirilmişdir. Belə ki, cari ilin birinci yarımili üzrə POS-terminaldan, bankomatdan və internet üzərindən 500 manatdan yuxarı məbləğdə nağdsız ödənişlər aparan 76 vətəndaşa 6005 manat məbləğində hədiyyələr təqdim edilmişdir. Nəzarət-kassa aparatları vasitəsilə nağd pul hesablarının aparılması üzərində ictimai nəzarətin gücləndirilməsi məqsədilə "Kassa çeki alın, avtomobil qazanın" adlı stimullaşdırıcı lotereya oyunu zamanı tirajın 4 nəfər qalibi muxtar respublikamızın sakinləri olmuş və hər biri avtomobil udmuşdur.

Bildirilmişdir ki, bugünkü tədbirdə muxtar respublikamızın müxtəlif rayonlarından olan insanlar iştirak edirlər. Qalib şəxslərə 147 adda və ya 14 min manat dəyərində müxtəlif məişət əşyaları hədiyyə ediləcəkdir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin sədr müavini Elvin Axundov bildirmişdir ki, "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, muxtar respublikada ödəniş sistemləri və nağdsız hesablaşmalarla bağlı müxtəlif istiqamətli tədbirlər həyata keçirilmişdir. Müştərilərlə hesablaşmaların nağdsız qaydada aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 dekabr 2014-cü il tarixə 845 ədəd olmaqla, POS-terminalların sayı 618 ədəd artmışdır.

Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi Rəşad Əliyev ikinci tirajın nəticələri barədə tədbir iştirakçılarına məlumat verərək bildirmişdir ki, bu tirajda muxtar respublikanın bütün şəhər və rayonlarını əhatə etməklə 1 iyul 2014-cü il tarixdən 1 dekabr 2014-cü il tarixədək, yəni 5 ay ərzində nağdsız ödəniş aparan 147 şəxs hədiyyə qazanmışdır. Hədiyyələr 4 meyar üzrə müəyyənləşdirilmişdir. Birinci meyar üzrə 400 manatdan 801 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 60-75 manat arasında müəyyən olunmuşdur ki, bu meyarda 72 şəxs mükafatlandırılacaq. İkinci meyar üzrə 801 manatdan 1501 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 75-125 manat arasında müəyyən olunmuşdur ki, bu meyarda 64 şəxs mükafatlandırılacaq. Üçüncü meyar üzrə isə 1501 manatdan 2001 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 250-300 manat arasında müəyyən olunmuşdur ki, bu meyarda 7 şəxs mükafatlandırılacaq. Dördüncü meyar üzrə 2001 manatdan artıq məbləğdə nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 350-450 manat arasında müəyyən olunmuşdur ki, bu meyarda 4 şəxs mükafatlandırılacaq.

Hədiyyə qazanmış şəxslərin 47 nəfəri təhsil, 16 nəfəri səhiyyə, 3 nəfəri mədəniyyət işçisi, 20 nəfəri hərbçi və hüquq-mühafizə orqanlarının əməkdaşı, 12 nəfəri texniki işçilər, 46 nəfəri dövlət qulluğu üzrə ayrı-ayrı sahələrdə çalışanlar, 1 nəfəri təqaüdçü, 2 nəfəri isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

Sonra hədiyyələrin təqdimatı olmuşdur. Hədiyyə alanlar adından Vəli Vəliyev, Nadir Tağıyev və başqaları öz minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**




## Naxçıvan Muxtar Respublikası – 90

**Ulu öndər Heydər ƏLİYEV:** *Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq.*

# NAXÇIVAN: muxtariyyətdən möhtəşəm tərəqqiyə



***“Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.***

***Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılığı nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir”.***

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamında əksini tapan, ötən 90 il ərzində bu qədim diyarın keçdiyi şərəfli yolu əks etdirən bu sətirlər hər bir naxçıvanlıda haqlı olaraq qürur hissi doğurur.

Həmin sərəncamın icrasını Naxçıvan Muxtar Respublikasında təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il yanvarın 17-də imzaladığı Sərəncamla “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər planına uyğun olaraq, muxtar respublikada konfrans və forumlar, idman yarışları keçirilmiş, müsabiqə və sərgilər təşkil edilmiş, kitab təqdimatları olmuşdur. 2014-cü il iyun ayının 4-5-də Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda Beynəlxalq Konfrans, oktyabrın 23-24-də Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı, dekabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan Muxtar Respublikasının inkişafı” mövzusunda elmi konfrans keçirilmişdir.

Həmin tədbirlərin zirvəsi cari il aprel ayının 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilən 90 illik yubiley mərasimidir.

Yubiley tədbirində çıxış edən ölkə başçısı keçilən yola nəzər salmış, görülən işlərə yüksək qiymət vermiş, qiymətli sərvət olan muxtariyyətin qorunmasında, daha da möhkəmləndirilməsində ulu öndərin həyata keçirdiyi tədbirləri xatırlamışdır: *“Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.*

*Əfsuslar olsun ki, Heydər Əliyevin Azərbaycandan Moskvaya köçməsindən sonra bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da tənəzzül dövrü yaşanmışdı. Əldə edilmiş bütün uğurlar tədricən tənəzzül etmiş və muxtar respublika üçün çox ağır bir dövr başlamışdır. Biz o dövrü yaxşı xatırlayırıq. 1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi. Xoşbəxtlikdən yenə də ulu öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər”.*

Ölkə başçısı Naxçıvanın o illərdə ağır sınaqlardan çıxmasında ulu öndərin uzaqgörən siyasətinin mühüm rol oynadığını, naxçıvanlıların ümummilli lider Heydər Əliyevə böyük ümid bəslədiklərini və bu ümidin məhz görkəmli dövlət xadimi tərəfindən doğrulduğunu bildirmişdir: *“Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi.*

*O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə “sovet sosialist” sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur”.*

Muxtariyyətin Naxçıvana bəxş etdikləri barədə cild-cild kitablar yazmaq olar. Ona görə də hər bir naxçıvanlının taleyində mühüm rol oynayan muxtariyyət statusunun bəhrələrindən geniş danışmırıq. Ancaq bir neçə mühüm amilə diqqət yetirmək istəyirik. Muxtariyyət olmasaydı, bugünkü xoşbəxt Naxçıvan da olmayacaqdı. Naxçıvanın bu gününün təməlində ulu öndər Heydər Əliyev siyasətinə böyük ehtiram isə başlıca amil kimi öndə durur. Bu gün hər bir naxçıvanlı görür ki, bu qədim diyarın inkişafı üçün böyük sevgi və diqqətlə göstərilən səylər elə bu ehtiramın təcəssümüdür. Ötən dövrlərdə ordumuzun burada yerləşən hissələrinin hərbi potensialının möhkəmləndirilməsi, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi muxtariyyət amilinin uğurlu məntiqi nəticəsidir. Bir vaxtlar saatlarla, hətta günlərlə işıqsız qalan Naxçıvanda enerji təhlükəsizliyi məsələləri artıq öz həllini tapmış, hətta ixrac imkanları yaranmışdır.

Naxçıvanın elektrik enerjisi potensialının 220 meqavata yaxın olması, son illər ərzində bir neçə elektrik stansiyasının tikilməsini diqqətə çatdıran dövlət başçısı Naxçıvanda sənaye potensialının gündən-günə artmasını böyük uğur saymışdır. Prezident bildirmişdir ki, Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu uğurların səbəblərini yubiley mərasimindəki çıxışında belə açıqlamışdır: *“Aydın məsələdir ki, ulu öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Üçrəngli dövlət bayrağının, digər milli dövlətçilik atributlarının qəbul edilməsi, milli ordu quruculuğuna başlanılması, aqrar islahatların həyata keçirilməsi – böyük ömrün Naxçıvanda keçən 3 ili ərzində görülən bütün bu tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi.*

*Həmin dövrdə Heydər Əliyev quruculuq xəttini davam etdirən Naxçıvan Azərbaycanın digər əraziləri üçün bir nümunə gücündə idi. Təsadüfi deyil ki, dövlət müstəqilliyini itirmək təhlükəsi yarandıqda bütün Azərbaycan xalqı “Heydər Əliyev hakimiyyətə gəlməlidir” tələbi ilə ayağa qalxdı”.*

*“1993-cü ildə böyük dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı bir tərəfdən böyük şəxsiyyətlərin tarixdə oynadıqları rolun daha bir ifadəsi idisə, digər tərəfdən xalqla milli liderin qırılmaz tellərlə bağlılığının nümunəsi idi”*, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, tarixə qurucu rəhbər kimi daxil olan ümummilli liderimizin hakimiyyətdə olduğu illərdə Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası da sabitliyə və tərəqqiyə qovuşmuş, davamlı inkişaf və əmin-amanlıq yoluna çıxmışdır.

Bir qədər geriyə ekskurs etsək, qəlbimizi qürur hissi ilə dolduran rəqəmlərin qədim diyara muxtariyyət illərinin müstəqillik tarixi dövründə gətirdiyi töhfələri görərik.

Azərbaycan Prezidentinin təsdiq etdiyi 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Ümumi Daxili Məhsul istehsalı 2003-cü ildəki göstəricini müqayisəli qiymətlərlə 8 dəfə üstələmişdir. Ötən il hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2003-cü ilə nisbətən 7 dəfə artaraq 5423 manat olmuşdur.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2003-cü ilin sonuna muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ildə bu göstərici 7 dəfə artaraq 438-ə çatmışdır.

Əsas kapitala yönəldilən dövlət investisiyalarının həcmi də 2003-cü illə müqayisədə 4 dəfə artmışdır. Son 10 ildə 227 inzibati bina, mənzil təsərrüfatı üzrə 42 obyekt, 29 nasos stansiyası, 150 subartezian quyusu tikilmişdir. Kənd və qəsəbələrin də inkişafı diqqətdə saxlanmış, 100-dən çox kənd və qəsəbə mərkəzi tikilərək istifadəyə verilmişdir.

Muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində də kompleks tədbirlər görülür. Son illər muxtar respublikada 730 kilometrdən çox yeni avtomobil yolları salınmış, 20-yə yaxın körpü tikilmişdir.

Bu rəqəmlər 2014-cü ilin ötən 11 ayında bir qədər də yüksəlmişdir. Belə ki, on bir ay ərzində 2 milyard 81 milyon 307 min 500 manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2013-cü ilin yanvar-noyabr aylarından 1,2 faiz çoxdur.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2013-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 0,8 faiz artaraq 4758,4 manata (6067,1 ABŞ dollarına) çatmışdır.

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 812 milyon 920 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

İnfrastruktur quruculuğu çərçivəsində əsas kapitala 833 milyon 708 min manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 728 milyon 797 min manatı və ya 87,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

*Yalnız ümumiləşmiş şəkildə təqdim etdiyimiz bu azsaylı rəqəmlərin arxasında muxtariyyətin bəhrələrini, Heydər Əliyev yoluna və siyasətinə böyük ehtiramın durduğunu görmək çətin deyil. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur”.***

**Muxtar MƏMMƏDOV**



# Tariximizin muxtariyyət salnaməsi

*Dünyada bəzi dövlətlərin ərazisinin bir hissəsinin başqa ölkənin və ya ölkələr qrupunun əhatəsində yerləşməsi hamımıza məlumdur. Anklav ərazilər hesab edilən bu cür sahələrə Rusiya Federasiyasının Kalininqrad Vilayətini, Amerika Birləşmiş Ştatlarında Alyaska ştatını, Cənubi Afrika Respublikasının daxilində yerləşən Svazilend və Lesoto ərazilərini misal göstərmək olar.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın muxtariyyət statusu qazanmasına səbəb həm də ərazinin uzun illər boyu müxtəlif geostrateji maraqların ən çox kəsişdiyi nöqtələrdən biri kimi mövcud olmasıdır. Bu maraqlar ötən əsrin əvvəllərində, hətta ondan əvvəlki dövrlərdə də olub, bu gün də var.

Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, çətin, ancaq şərəfli bir tarixi inkişaf yolu keçib. Bir zamanlar coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan Naxçıvan XX əsrin əvvəllərində Azərbaycandan ayrı düşüb, onunla sərhədi ərazi itirilməsi nəticəsində ləğv olunub. Qədim Azərbaycan torpaqlarında öz dövlətlərini quran, sonra bu dövlətin ərazilərini artırmaq həvəsi kimi sərsəm ideyalarla yaşayan ermənilər daim Naxçıvan ərazilərinə iddia edib və bəzən bu iddiaları böyük dövlətlərin, xüsusilə Rusiyanın milli maraqları ilə uzlaşdıraraq müəyyən mənada öz istəklərinə nail olublar. Böyük Türk dünyasını birləşdirən Naxçıvan adlı körpü tarixin bir çox ağır sınaqlarından çıxaraq öz muxtariyyətini əldə edib ayaqda durmağı bacardı.

Akademik İsmayıl Hacıyev yazır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin və amerikalıların dəstək və yardımlarından istifadə edən erməni millətçiləri Naxçıvanı işğal etməyə çalışırdılar. Lakin qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardıqları mübarizə məkrli düşmənlərin arzularının reallaşmasına imkan vermədi. Naxçıvanın qəhrəman əhalisi bu diyarı Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edərək Ana Vətənə birləşmək uğrunda inadla mübarizə aparıb. Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 3-də Araz-Türk Respublikası adlı cümhuriyyət yaratdılar. Əhalisi bir milyon nəfərdən çox olan Araz-Türk Respublikasının yaradılmasında ən başlıca məqsəd bölgənin erməni işğalına düşməsinə imkan verməmək idi. 1919-cu ilin yanvarında ingilislər Naxçıvana gəldilər və burada general-qubernatorluq yaratdılar. Bir ay sonra Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri də Naxçıvana gəlib çıxdılar. Keçirilən müzakirələrdə siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələləri özündə birləşdirən akt tərtib edildi. Bu akt Naxçıvanın könüllü surətdə Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında idi. Təbii ki, ingilislərin başqa maraqları da var idi. Akademik qeyd edir ki, "...Naxçıvandakı ingilis missiyası ermənilərin respublika hüdudlarına hücumuna mane olmurdu və onların fəaliyyətində ikili siyasət özünü açıq-aşkar göstərirdi. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifi ilə çıxış edirdilər". Təbii ki, bütün bu məkrli təkliflərin qarşısı Naxçıvan əhalisinin mübarizliyi, mərdliyi nəticəsində alındı.

Araz-Türk Respublikası 1919-cu il mart ayının əvvəllərində fəaliyyətinə son qoyur. Naxçıvan bölgəsinin erməni hücumundan qorunmasında bu respublikanın böyük xidmətləri olub. Bir il sonra – 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən devrilir və Azərbaycanda Sovet hakimiyyəti bərqərar edilir. Naxçıvanda Sovet hakimiyyəti iyulun 28-də elan edilir. Ancaq Naxçıvana olan iddialar yenə də səngimir.

1921-ci ilin yanvar ayında keçirilən rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizi mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verir. Naxçıvanın Azərbaycanın tərkibində qalmasında görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin böyük əməyi və tarixi xidməti var. O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı ifadə edib, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə edərək Güney Qafqazda sərhəd məsələləri və xüsusilə Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər verib. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul edir və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində bu cəhət öz əksini tapır: "Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir". Güney Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi (1921, 13 oktyabr) Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqləyir və onun sərhədlərini qəti surətdə müəyyənləşdirir.

1921-1924-cü illərdə Naxçıvanla bağlı çoxsaylı müzakirələr gedir. Bu müzakirələrdə məlum olur ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin coğrafi vəziyyəti ilə bağlıdır. 1923-cü il iyunun 16-da Naxçıvan Muxtar Diyar (ölkə) adlandırılır. 1924-cü il yanvarın 4-də isə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan diyarını Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edir. Və nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul edir. Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul edilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit olunur. Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi isə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapıb. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: *"Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".*

Vurğulamaq yerinə düşər ki, müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri – 1949-cu ildə 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1999-cu ildə 75, 2004-cü ildə 80, 2009-cu ildə isə 85 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. Muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak edən ümummilli lider Heydər Əliyev demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 9 fevral 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik, 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə 85 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında göstərilir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubiley tədbirlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanın muxtariyyət statusunun ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğunu bildirərək demişdir: ***"Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin".***

Naxçıvan Muxtar Respublikasının statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində iki il bundan əvvəl daha bir mühüm addım atıldı. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyət daşıyan məqam əks olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə hazırlanmış həmin hissə nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilib. Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan 2 beynəlxalq müqaviləyə əsaslanır. Bundan başqa, bildirilir ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunur. Maddənin sənədə salınması Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir. İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən və 1921-ci ildə qəbul olunan Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilir.

**Bəli, ümummilli lider Heydər Əliyevin Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi, eyni zamanda bu siyasi xəttin muxtar respublikada uğurla davam etdirilməsi regionun hərtərəfli inkişafını təmin edib, bu qədim Azərbaycan torpağını çiçəklənən diyara çevirib. Muxtariyyətinin 90-cı ilini uğurlu nəticələrlə başa vuran Naxçıvan indi hərtərəfli inkişafına görə Azərbaycanın lider regionu, böyük Türk dünyasının isə döyünən ürəyidir.**

Səbuhi HƏSƏNOV

## Naxçıvanın muxtariyyəti beynəlxalq unikal model kimi hüquqi, siyasi və tarixi baxımdan bir fenomendir

***Naxçıvan Muxtar Respublikasının yerləşdiyi region tarixboyu özünün daha çox strateji və siyasi əhəmiyyəti ilə diqqəti cəlb edib. Təsadüfi deyil ki, qədim dövrlərdən bəri bu diyarı "Şərqin qapısı" adlandırırlar. Müasir dövrümüzdə tanınmış strateqlər yüzilliklərin çətin tarixi-siyasi süzgəcindən keçib gələn bu ifadəni yenə müasir dövrün reallıqları prizmasında qiymətləndirərək böyük həqiqəti bir daha ifadə edirlər: Naxçıvan bu gün də Şərqin qapısıdır və onun muxtariyyət qazanması regional önəmə malik siyasi hadisə olmaqla yanaşı, mühüm strateji əhəmiyyətə malik olan bölgənin Azərbaycanın tərkibində qalmasına şərait yaradıb. Yəni muxtariyyət həm də ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması baxımından vacib amil kimi diqqətləri cəlb edir.***

Azərbaycan Prezidenti cənab İlham Əliyev 14 yanvar 2014-cü ildə imzaladığı "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamda muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola yüksək qiymət verərək Naxçıvanın daim milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirməsini, muxtariyyətin Azərbaycanın beynəlxalq münasibətlərindəki yerini xüsusi vurğulaması qeyd etdiklərimizi təsdiq edir.

Bu gün bir çox Avropa siyasətçiləri Naxçıvanın muxtariyyətini beynəlxalq unikal bir model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirirlər. Məsələ burasındadır ki, Naxçıvanın muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə müəyyən olunub. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapıb. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimovun qeyd etdiyi kimi, Avropanın analoji qurumlarından yalnız Gürcüstanın Acarıstan Muxtar Respublikası və Finlandiyaya məxsus Aland adaları beynəlxalq müqavilə ilə yaradılsa da, Naxçıvan Muxtar Respublikasının statusu, buradakı muxtariyyətin siyasi səlahiyyətləri yuxarıda qeyd olunan hər iki muxtar qurumdan fərqlidir.

Anar İbrahimov bildirir ki, Naxçıvanla eyni beynəlxalq müqavilə ilə muxtar qurum formasında təşkil olunan Acarıstanın siyasi səlahiyyətləri məhduddur və daha çox inzibati-iqtisadi səlahiyyətlərə aiddir. Birinci Dünya müharibəsindən sonra Millətlər Liqası tərəfindən yaradılan Aland adalarındakı muxtariyyət isə dövlət statusuna malik deyil. Hər iki muxtar qurumdan fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsi (geri çağırılması) prosedurunun mövcud olmaması və muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsinin konstitusion səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən əsas amillərdəndir.

Anar İbrahimov digər bir amilə də diqqət çəkərək deyir ki, Naxçıvan muxtariyyəti daxili qanunvericilik, sərbəst büdcə siyasəti sahəsində, muxtariyyətin mərkəzi hakimiyyətlə əlaqələr mexanizminin istər siyasi, istərsə də hüquqi cəhətdən müsbət mənada heç yerdə təkrarlanmayan xüsusiyyətlərə malikdir. Unitar dövlət olan Azərbaycanın tərkibində muxtar dövlətin, prezidentlik üsul-idarəsi olan dövlətin tərkibində parlamentar respublikanın mövcud olması da bu xüsusiyyətlərdən biridir.

Ən əsası isə bütün bu xüsusiyyətlər və özünəməxsusluqlar burada mükəmməl siyasi-hüquqi mexanizmlərin təşəkkül tapmasına gətirib çıxarıb. Təsadüfi deyil ki, Naxçıvan muxtariyyətinin bu xüsusiyyətləri Avropanın müxtəlif dövlətlərarası təşkilatları tərəfindən də dəfələrlə qeyd olunub. Naxçıvanın muxtariyyət modeli 30 oktyabr 2013-cü il tarixdə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd edilib. Sessiyada İtaliyadan olan məruzəçi Bruno Marzianonun "Avropada xüsusi statusa malik region və ərazilər" adlı hesabatında Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu da xüsusi qeyd edilərək belə bir modelin çox faydalı olduğu vurğulanıb. Bu cür dəyərləndirmə 1997-ci ildə Venesiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinə verdiyi rəydə də öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikası olduqca mürəkkəb, çətin, eyni zamanda şərəfli yol keçib. Tarixboyu Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olsa da, heç bir məkrli qüvvə naxçıvanlıların iradəsini qıra bilməyib. Bu baxımdan muxtariyyət statusu Naxçıvanın siyasi taleyində də mühüm əhəmiyyət kəsb edib.

*Ulu öndər Heydər Əliyevin Azərbaycanın və onun gözəl guşələrindən olan Naxçıvanın qorunmasında və inkişafında misilsiz xidmətləri olub. Dahi rəhbərin siyasətinin Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində bu gün naxçıvanlılar qədim diyarın iqtisadiyyatını, elm və təhsilini, mədəniyyətini çox böyük uğurla inkişaf etdirirlər. Son illər Naxçıvan Muxtar Respublikasının Cənubi Qafqaz ölkələri üçün inkişaf modeli hesab edilən Azərbaycan Respublikasının parlayan ulduzu adlandırılması da bu baxımdan təsadüfi deyil.*

Rauf ƏLİYEV

# Güclü iqtisadiyyat muxtariyyətimizin zəfər səhifəsidir

***Bütün tarixi boyu şərəfli yol keçmiş qədim Naxçıvan özünün muxtariyyət illərində də iqtisadi inkişaf ilə nəyə qadir olduğunu bir daha sübut edərək doğma Azərbaycanın tərkibində yeni intibahına qovuşmuşdur. "Bütün uğurlar iqtisadiyyatdan başlayır və bütün gələcək planlar onunla yaranır" deyənlərin nə qədər haqlı olduğunu sübut etmək üçün Şərqlə Qərbin astanasında Azərbaycanın Naxçıvan Muxtar Respublikası timsalından daha tutarlı tezis irəli sürmək çətindir.***



Naxçıvan Muxtar Respublikası 90 illik inkişaf dövründə iqtisadiyyatının, təbii ehtiyatlarından istifadənin, sənaye, kənd təsərrüfatı, ticarət, əhali məşğulluğu, insanların həyat səviyyəsi kimi məsələlərin həllində ictimai münasibətlərin formasına və dövrün tələbinə görə kifayət qədər mürəkkəb və keşməkeşli proseslərdən keçmişdir. Bir zamanlar özünün duzu, ipəyi, meyvələri ilə tarixi İpək Yolu üzərində yaxşı tanınmış Naxçıvanda Sovet hakimiyyətinin qurulması ilə aparılan kooperativləşmə yönümlü islahat tədbirləri, yaradılan bir neçə istehsal müəssisələri bu regionun malik olduğu potensialın əsl səviyyəsindən çox uzaq idi. O dövrdə ucqarların hərtərəfli inkişafı, əhalisinin məşğulluğu, sosial-rifah halının yüksəldilməsi kimi məsələlərin həlli üçün hələ neçə onillər gözləmək lazım gələcəkdi. Nəticədə, Naxçıvanda 1965-ci ilədək cəmi 40 adda məhsul istehsalına nail olunmuş, bunların da əksər hissəsi mineral ehtiyatların hasilatı və yeyinti sənayesi hesabına mümkün olmuşdu. Həmin dövrdə Naxçıvanın iqtisadiyyatı aqrar çərçivədən kənara çıxa bilməmişdir. Naxçıvanın müasir intibaha qədər gəlib çıxdığı 90 illik muxtariyyət tarixinin yarısını təşkil edən birinci mərhələyə nəzər saldıqda bir tərəfdən qurulmuş sovet dövlətinin elektrikləşdirmə və sənayeləşdirmə kimi özünəməxsus kütləvi şüarları altında həyata keçirilən işlər, digər bir tərəfdən isə ötən beşillik və onilliklər ərzində inkişaf dinamikası get-gedə aşağı düşən sənaye, kənd təsərrüfatı yönümlü istehsal sahələri görünməkdədir. Nə qədər qəribə olsa da, bu illər ərzində Naxçıvanın zəngin, təbii iqlim və mineral ehtiyatlarından istifadə olunmaması bir muxtar qurum kimi onun iqtisadiyyatının inkişaf etdirilməməsi üçün hər cür əsassız əsaslandırmalar irəli sürülürdü.

Ölkəmizin yeni tarixinə dönüş ili kimi yazılmış 1969-cu ildən sonra başlayan yeni bir intibah dalğası Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafında dərin izlərlə yadda qaldı. Həmin ildən hansı şəraitdə olursa-olsun, Vətən sevgisi amalını hər şeydən üstün hesab edən, öz xalqına, millətinə xidmət etməyi ən böyük xoşbəxtlik sayan xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başlaması məhz Naxçıvanın da dirçəlişinin başlanğıcı idi. 1969-1987-ci illərin sürətli inkişaf prosesləri, sözün əsl mənasında, Naxçıvanı özünə qaytardı. Naxçıvanlılar ilk dəfə olaraq regionda yaradılmış irihəcmli istehsal müəssisələri hesabına rahat iş yerləri əldə etdilər. Təkcə 1971-1975-ci illərdə muxtar respublikada xalq təsərrüfatına əsaslı vəsait qoyuluşunun 1924-1970-ci illərdəkindən çox olması hər şeyi deyir. Naxçıvanda 1985-ci ilədək müxtəlif sahələr üzrə yaradılmış 21 iri sənaye müəssisəsində trikotaj məmulatlarından elektrotexnika avadanlıqlarınadək geniş çeşiddə məhsul istehsal olunurdu. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullar respublikanın və keçmiş ittifaqın müxtəlif yerlərinə göndərilir, geniş sahələrdə torpaqlar əkin dövriyyəsinə cəlb olunaraq ənənəvi bağçılıq, meyvəçilik istiqamətində mühüm işlər aparılırdı. Qeyd olunan dövrdə əhalinin rifah halının yüksəlməsi istehlak xərclərinin artması, rabitə, nəqliyyat xidmətlərindən geniş istifadə olunması ilə müşayiət olunur, Bakı və Naxçıvan arasında hava nəqliyyatı əlaqələri yaradılırdı. Muxtar respublikanın iqtisadi və sosial həyatını hərtərəfli əhatə etmiş bu mərhələ, əslində, Azərbaycanın müstəqilliyin ilk illərində qarşılaşacağı çətinliklərdən qarantı olacaqdı. Xalqımızın ümummilli liderinin mərkəzi hakimiyyətdən uzaqlaşdırılması və SSRİ-nin dağılması ilə başlayan böhran dalğası qısa müddətdə Naxçıvan Muxtar Respublikasının da iqtisadiyyatına öz mənfi təsirini göstərdi. Naxçıvan yenidən çətinliklərlə, məkrli düşmənlə üz-üzə qalmışdı.



Xalqımızın milli mübarizə tarixinə qızıl hərflərlə yazılmış 1990-1993-cü illərin Naxçıvanın muxtariyyət tarixində xüsusi yeri vardır. Bu dövr xalqımızın yenidən müstəqillik qazanması, düşmən təcavüzünə qarşı onu qoruyub saxlaması və öz liderinin ətrafında yenidən daha sıx birləşməsi dövrü kimi xarakterizə edilə bilər. Bir vaxtlar dünyanı lərzəyə salmış bir imperiyanın çöküşündən sonra iqtisadiyyatının dağılması, siyasi idarəetməsinin böhran keçirməsi ilə məhvolma təhlükəsi yaşayan Azərbaycanın köməyinə yenə dahi rəhbər Heydər Əliyev yetişdi. Bu, elə bir zaman idi ki, hər tərəfdən blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının taleyi möcüzələrə qalmışdı.



Dünya tarixində iqtisadi həyatın dalğalı inkişafı ilə növbələşən yüksəliş və tənəzzül periodları çox olmuşdur. Lakin xarici aləmlə nəqliyyat, kommunikasiya, ticarət imkanları hər tərəfdən bağlanmış, enerji və ərzaq ehtiyatları məhdud bir regionun iqtisadiyyatının da çökməsi burada yaşayan insanlar üçün ən ağır imtahan idi. Ancaq "ümid sonda ölür", – deyiblər: Naxçıvanın soyuq, qaranlıq gecələrində kerosin lampasının titrək işığında yorulmaq bilmədən Yeni Azərbaycanın gələcək layihəsi üzərində düşünən dahi rəhbər Heydər Əliyev öz xalqının yanında idi. Artıq Naxçıvanda hamının Tanrının ona bəxş etdiyi liderinin ətrafında sıx birləşib düşmənə zərbə vurmağa, dağılmış iqtisadiyyatı yenidən inşa etməyə iradə və gücü var idi. Tarix sübut etmişdir ki, məhz təkcə bu amil hər cür resurs çatışmazlığını dəf etməyə, hər şeyi yenidən başlamağa imkan verir. 1993-cü ilə qədər Naxçıvanın qonşu dost ölkələrlə əlaqələrinin yaradılması, ərzaq, enerji təminatı məsələlərinin həlli, ölkənin paytaxtı ilə hava yolu əlaqəsinin genişləndirilməsi, aqrar islahatlara başlanılması muxtar respublikanın etibarlı müdafiəsi qədər həyati əhəmiyyətli işlər olub, Naxçıvanın növbəti inkişaf və intibah dövrü üçün etibarlı zəmin yaradırdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ölkə iqtisadiyyatının dirçəldilməsi və qırılmış təsərrüfat əlaqələrinin yenidən qurulmasına təkan verən ən mühüm amil olmuşdur.



Naxçıvanın muxtariyyət tarixində mühüm yer tutan 1995-ci ildən sonrakı dövr ölkəmizdə makroiqtisadi sabitliyə nail olunması ilə bərabər başlanan və cəmiyyətin bütün sahələrini əhatə edən intibah mərhələsi adlanır. Bu intibah blokadanın ağır nəticələrini – ərzaq, enerji, sənaye məhsulları çatışmazlığını aradan qaldırdı, regionda əhalinin həyat səviyyəsini müasir istehsal və sosial infrastruktur yaratmaqla yüksəltdi. Uzun keçən böhran illərindən sonra əli işdən soyumuş minlərlə naxçıvanlını yenidən öz işinə qaytara bilmək heç də asan məsələ deyildi. Müəllimi dərs dediyi sinfə, mühəndisi inşaat meydançasına, kəndlini tarlasına qaytara bilmək üçün aparılan iqtisadi islahatlarla bərabər, həm də yay-qış dəmədən onların yanında olmaq böyük fədakarlıq tələb edirdi. Naxçıvanın şəhərləri ilə yanaşı, irili-xırdalı 200-dən artıq kəndində aparılan quruculuq tədbirləri blokadada yaşayan bir regionda aparıla biləcək sosial siyasət tədbirlərinin səviyyəsi üzrə dünyaya bir nümunə oldu. Nəticədə, keçən 19 ildə bir dənə də olsun, kənd boşalmadı, əksinə, şüşə kimi hamar yollarına qovuşan kəndlərimizdə Naxçıvanın işığı parladı, Odlar yurdunun alovu şölələndi.



Naxçıvanı intibaha qovuşduran bu illərdə region iqtisadiyyatı kəmiyyətcə nə qazandı? Qısa desək, 2013-cü ildə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi 1995-ci ildəki 43 milyon 722 min manatlıq səviyyəyə qarşılıq 2 milyard 339 milyon manatadək yüksəldi. Nəticədə, 19 ildə iqtisadiyyatı 54 dəfə artan bir region enerji idxalından enerji ixracına qədər uğurlu inkişaf yolu keçdi. Bu dövrdə muxtar respublikada əhali gəlirləri 55 dəfə çoxaldı, orta aylıq əməkhaqqı 377 manatadək artdı. Son 19 ildə Naxçıvan aqrar regiondan sənaye regionu olmaq yolunda mühüm məsafə qət etdi.



*Ötən ilin nəticələrinə görə, muxtar respublikada sənaye məhsulunun ümumi həcmi 1995-ci ildəki səviyyədən 94 dəfə artaraq 862 milyon 871 min manatadək həcmə çatdı. Nəticədə, Naxçıvanda iş yerlərinin sayı artdı, istehlak xərclərində lüks predmetlərin payı çoxaldı. Naxçıvanlılar daha çox səyahət etməyə, təhsilə, mədəniyyətə vaxt və vəsait ayırmağa imkanlar əldə etdilər. Naxçıvanın şöhrəti onun hüdudlarını, ölkə sərhədlərini aşıb dünyaya yayıldı: muxtar respublika informasiya cəmiyyətinə qovuşdu, humanitar inkişaf yoluna qədəm qoydu.*

**Əli CABBAROV**





***Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il ötür. Qədim tarixə, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda şərəfli inkişaf və tərəqqi yolu keçmişdir. Ulu Naxçıvan torpağı həmişə özünün zəngin mədəniyyəti, ədəbiyyatı, incəsənəti və xalq yaradıcılığı nümunələri ilə Azərbaycan, ümumən, bəşər sivilizasiyası tarixində əhəmiyyətli rol oynamışdır.***

# Naxçıvan mədəniyyəti muxtariyyət illərində

1920-1924-cü illər Naxçıvanın çətin və mürəkkəb dövrü kimi tarixə düşmüşdür. Bu dövrdə xalqın maariflənməsində, ziyalıların təşkilatlanmasında Naxçıvan teatrı mühüm rol oynayırdı. Qədim diyarda mədəniyyətin, folklorun, mədəniyyət abidələrinin öyrənilməsində 1925-ci ilin mart ayında yaradılıb 1928-ci ilədək fəaliyyətini davam etdirmiş "Naxçıvanı Tədqiq və Tətəbbö" (araşdırma, öyrənmə) Cəmiyyətinin də rolu olmuşdur. Naxçıvan Muxtar Respublikasında mədəniyyət sisteminin dövlət tərəfindən tənzimlənməsinin təşkilatlanması uzun bir yol keçmişdir. Naxçıvan MSSR Ali Sovetinin 18 aprel 1953-cü il tarixdə keçirilən III çağırış 3-cü sessiyasında Naxçıvan MSSR Nazirlər Soveti yanında Mədəniyyət Müəssisələri Komitəsi, Radio Məlumat Komitəsi, İncəsənət İşləri İdarəsi və Kinolaşdırma İdarəsi birləşdirilərək Naxçıvan MSSR Mədəniyyət Nazirliyi yaradılmışdır.

1924-cü ilin fevralında Naxçıvan Muxtar Respublikası təşkil olunduqdan sonra, həmin ilin oktyabrında Naxçıvanda ilk muzeyin yaradılması haqqında qərar qəbul edilmişdir.

Muxtariyyətin ilk illəri kitabxana işi, kitabxana şəbəkələrinin yaranması ilə əlamətdardır. Hələ 1922-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən təsis edilən Naxçıvan Şəhər Kitabxanasının bazasında 1930-cu ildə Naxçıvan Respublika Kitabxanası yaradılmışdır. İlk uşaq musiqi məktəbinin yaradılması isə 1937-ci ilə təsadüf edir.

Naxçıvan Muxtar Respublikasında da mədəniyyətin inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq muxtar respublikada klub və mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilmiş, burada Bəstəkarlar Təşkilatı, Rəssamlar Birliyi, Musiqi Texnikumu fəaliyyətə başlamış, muxtar respublikanın bütün rayonlarında muzeylər yaradılmış, uşaq musiqi məktəbləri istifadəyə verilmişdir.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən mədəniyyətin və incəsənətin inkişafında əldə edilən uğurların əsasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu inkişaf və tərəqqi strategiyası dayanır.

Təkcə bir faktı göstərmək kifayətdir ki, 1995-2014-cü illər ərzində bu sahənin inkişafı üçün görülən işlər haqqında təsəvvür yaransın. Bu illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin mühafizəsi və bərpası, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və yubileylərinin qeyd olunması sahəsində 100-dən çox fərman və sərəncam imzalanmışdır.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində həyata keçirilən mühüm işlərdən biri yeni muzeylərin yaradılması, mövcud muzeylərin zövqlə yenidən qurulması olmuşdur. Bir sıra muzeylər üçün yeni binalar inşa olunmuş, muzeylərimizin bəziləri yeni binalara köçürülmüş, bəzi muzey binaları təmir edilmiş, onların ekspozisiyaları yenidən qurulmuşdur. Bu illərdə Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, C.Məmmədquluzadənin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Açıq Səma Altında Muzey, Xatirə Muzeyi fəaliyyətə başlamışdır.

Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi üçün dəyərli işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 15 fevral 2001-ci il tarixli Sərəncamı görkəmli rəssamın adının əbədiləşdirilməsi üçün mühüm işlərin görülməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" və başqa çoxsaylı sərəncamları tarixi abidələrimizə, maddi-mənəvi dəyərlərimizə, inanc yerlərimizə diqqət və qayğının ən gözəl nümunələridir. Bu gün Naxçıvan Muxtar Respublikasında 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmışdır.

Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey vardısa, hazırda qədim diyarımızda 27 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Bu gün təkcə Naxçıvan şəhərində 13 muzey vardır. 2010-cu ildə muxtar respublikada 2 muzey yaradılmışdır. Ali Məclis Sədrinin 9 fevral 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi, 23 oktyabr 2010-cu il tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramın ifadəsidir. Son illər muxtar respublikamızda dəniz səviyyəsindən 3700 metr yüksəklikdə Gəmiqaya muzeyi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 28 iyun 2013-cü il tarixli "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında", 22 avqust 2014-cü il tarixli "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" sərəncamlarına uyğun olaraq yaradılan yeni muzeylər "Muxtariyyət ili"ndə qapılarını ziyarətçilərin üzünə açmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 fevral 2014-cü il tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 17 sentyabr 2014-cü il tarixli "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" sərəncamları bu sahədə aparılan işlərin ardıcıllığını və davam etdirildiyini göstərir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illiyi dövlət səviyyəsində qeyd edilmişdir. 2013-cü ildə isə Rəssamlar Birliyinin yeni binası və B.Kəngərli adına Sərgi Salonu istifadəyə verilmişdir. Bu il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalı keçirilmişdir.

Teatrlarımıza dövlət qayğısını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Naxçıvanın mədəni həyatında mühüm rol oynayan teatrlarımız yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda teatrın zəngin ənənələrinin qorunması, milli teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Ölkə başçısının 31 yanvar 2008-ci il tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi təntənə ilə qeyd edilmişdir. 2012-ci ildə teatrın binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir. Müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrı və M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı beynəlxalq mədəni əlaqələrin yaradılmasında da fəal iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilmişdir.

Naxçıvan Dövlət Filarmoniyasının fəaliyyəti də yaddaqalan mədəni hadisələrlə zəngindir. Dövlət qayğısı sayəsində filarmoniyanın maddi-texniki bazası möhkəmləndirilmiş, filarmoniya üçün səs avadanlıqları, musiqi alətləri, musiqi ədəbiyyatı, geyimlər alınmışdır. Bu illərdə Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri Türkiyə Respublikasında, Rusiya Federasiyasında, Türkmənistan Respublikasında keçirilən müxtəlif tədbirlərdə uğurla çıxış etmişlər. "Muxtariyyət ili"ndə Naxçıvan Dövlət Filarmoniyasının musiqiçiləri, o cümlədən "Şərur" Xalq Yallı Ansamblı Polşa Respublikasının Krakov şəhərində muxtar respublikanın 90 illiyinə həsr olunmuş tədbirdə konsert proqramı ilə çıxış etmişdir. Son illər "Şərur" Xalq Yallı Ansamblının, filarmoniyanın kamera orkestrinin kompakt-diskləri hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 10 yanvar 2012-ci il tarixli "Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında" Sərəncamı ilə Estrada Orkestri yaradılmış və orkestrin repertuar zənginliyinə diqqət artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası musiqi mədəniyyətimiz tarixində mühüm hadisədir.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamı xalq yaradıcılığının müasir dövrümüzdə inkişafına və təbliğinə yeni üfüqlər açmışdır. Bu sərəncam həm də zəngin xalq yaradıcılığı ənənələrini yaşatmaq, gələcək nəsillərə çatdırmaq baxımından dəyərlidir. Bu gün muxtar respublikada xalq yaradıcılığına qayğı öz bəhrələrini verməkdədir. Muxtar respublikada Aşıqlar Birliyi yaradılmışdır. 2009-cu ildən başlayaraq Novruz bayramı ərəfəsində xalq yaradıcılığı günləri keçirilir. Bu şənliklərdə xalq sənətkarlarının əl işləri, Azərbaycan xalqının tarixini özündə yaşadan müxtəlif əşyalar, muzey eksponatları, milli mətbəx nümunələri nümayiş etdirilir, xalq oyunlarını və musiqisini, yallıları, xalq rəqslərini, toy adətlərini, aşıq musiqisini yaşadan folklor kollektivləri çıxış edirlər.

Bu gün muxtar respublikamızda xalq sənətkarlığının müxtəlif sahələrinə yeni həyat verilir. 2012-ci il muxtar respublikamızda "Milli dəyərlər ili" kimi yadda qalmışdır. Xalq sənətinin ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, toxuculuq, dəmirçilik, zərgərlik, misgərlik sahələrini özündə əks etdirən sahələr inkişaf etdirilir. Bu gün qədim diyarda 200-ə yaxın insan xalq yaradıcılığının müxtəlif sahələrini yaşadır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində qədim xalq sənətimizin nümunələrini yaşadan kurslar təşkil olunur, xalq sənətkarlarının əl işləri satış-sərgilərə çıxarılır.

Son 19 ildə muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərmişdir. Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2012-ci il tarixli "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq, burada elektron kitabxana yaradılmışdır. Yüksək zövq və nəfis tərtibatla nəşr olunmuş "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi", "Azərbaycan xalçaları: Naxçıvan qrupu", "Naxçıvan xalçaçıları" və başqa kitablar mədəniyyətimizin, incəsənətimizin təbliği baxımından olduqca dəyərli nəşrlərdir.

Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi və yubileylərinin keçirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. M.T.Sidqinin, M.Şahtaxtlının, B.Şahtaxtinskinin, H.Cavidin, Ə.Cavidin, C.Məmmədquluzadənin, B.Kəngərlinin, M.S.Ordubadinin, İ.Səfərlinin, M.Arazın yubileylərinin dövlət səviyyəsində qeyd olunması Naxçıvanda böyük mədəni hadisələr kimi dəyərləndirilməlidir.

*2009-cu il oktyabrın 14-də Bakıda keçirilən İslam Ölkələrinin Mədəniyyət Nazirlərinin VI Konfransında Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublikamızın nüfuzunun nəticəsi, ona göstərilən etimadın ifadəsidir. Mədəniyyətin inkişaf etdirilməsi həm də qədim diyarımızın regionda tanıdılması və mədəni mərkəz rolu oynamasını şərtləndirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi:* ***"Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir".***

**Əli RZAYEV**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı***





# Güclü ordunun milli dəyərlərə sadiq mərd əsgərləri

*Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə etmək hər bir vətəndaşın müqəddəs borcudur. Buna görə də qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Azərbaycan Respublikasının "Hərbi xidmət keçmə haqqında" Qanununda Vətənin əsgəri olmaq, onu hər hansı təcavüzdən qorumaq şərəfli vəzifə hesab olunur. Vətənə sədaqətlə xidmət etmək, onun layiqli əsgəri olmaq artıq hər bir gəncin arzu və amalına çevrilib.*

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş döyüş bayrağı altında əlində silah dayanaraq Vətənə, öz xalqına sədaqətli olacağı barədə təntənəli surətdə and içir. Hərbi and içən döyüşçü təntənəli surətdə vəd edir ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanını və canını əsirgəməyəcəkdir.

Təbii ki, bütün bunlar gənc əsgərin hərbi-vətənpərvərlik tərbiyəsinə öz müsbət təsirini göstərir və o, hərbi anddan sonra öz xidmətini daha məsuliyyətlə yerinə yetirir.



Hərbi-vətənpərvərlik tərbiyəsi gənc nəsli Vətənə məhəbbət ruhunda tərbiyə edir, sağlam düşüncəli insan cəmiyyəti formalaşdırır. Vətənimizin suverenliyini, xalqımızın dinc və yaradıcı əməyini etibarlı surətdə qorumaq, ərazi bütövlüyümüzü təmin etmək üçün ordu sıralarında hərtərəfli biliyə malik olan vətənpərvər gənclər olmalıdır. Həm də əsgərlərin hərb işini öyrənərək mürəkkəb hərbi ixtisaslara yiyələnmələri düşmənə qalib gəlmək bacarığını mənimsəmək deməkdir.

Bütün bunları nəzərə alaraq Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsi tərəfindən əsgərlərin mənəvi-psixoloji durumunun saflaşdırılmasında və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində xüsusi əhəmiyyətə malik olan məqsədyönlü tədbirlər həyata keçirilir. Təbii ki, şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsinin və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi işində, ilk növbədə, xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri əsas götürülür. Belə ki, hərbi hissə və bölmələrdə şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsi, əsgəri dostluq, yoldaşlıq münasibətlərinin və milli həmrəylik ruhunun daha da gücləndirilməsi məqsədilə "Şəxsiyyətə fərdi yanaşma" adlı yeni tərbiyə metodu tətbiq edilir. Bu, hərbi qulluqçular arasında "Hami – can və ürək dostu" tərbiyə metodudur ki, Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hərbi hissə və bölmələrdə tətbiq edilərək öz bəhrələrini verməkdədir.

"Şəxsiyyətə fərdi yanaşma" tərbiyə metoduna əsasən, mütəxəssis hazırlığı kursunu bitirərək ştat üzrə xidmət yerinə yeni gəlmiş əsgər və çavuşlar üçün özündən 5-6 ay çox xidmət etmiş, ali, orta ixtisas və tam orta təhsilli, döyüş əlaçısı, intizamlı, əxlaqlı, bacarıqlı, yüksək düşüncə qabiliyyətinə malik olan əsgər və çavuşlardan hami – can və ürək dostu təyin edilir. Xidməti yerinə yenicə qədəm qoymuş gənc əsgər və çavuşlar onlar üçün təyin olunmuş hami – can və ürək dostunun mənəvi dəstəyi ilə hissə və ya bölməyə uyğunlaşmağa başlayırlar. Bu tərbiyə metodu şəxsi heyət arasında nizamnamədən kənar qarşılıqlı münasibətlərin, cinayət və xoşagəlməz hadisələrin qarşısının alınmasında mühüm rol oynayır. Təbii ki, bu da əvvəlki illərlə müqayisədə xoşagəlməz hadisələrin sayının azalmasına öz müsbət təsirini göstərir.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ərazisindən həqiqi hərbi xidmətə çağırılan hərbi qulluqçulardan hər hansı biri qısamüddətli məzuniyyətə gedən zaman ölkəmizin digər bölgələrindən, ucqar rayonlarından olan əsgərlərdən birini də özü ilə evlərinə qonaq aparır. Artıq belə tərbiyə metodu ənənə halını alıb ki, bu da xalqımızın milli dəyərlərindən olan qonaqpərvərliyi özündə ehtiva edir. Qısamüddətli məzuniyyətdə olan zaman bir əsgər digərinin evində duz-çörək kəsir. Xalqımızın adət-ənənəsində bir-birləri ilə duz-çörək kəsən insanların ömürlük dostluq ülfəti bağladıqları məlumdur. Deməli, bu cür tədbirlər şəxsi heyətin həm mənəvi-psixoloji durumunun saflaşdırılmasında mühüm rol oynayır, həm də əsgərlər arasında ömürlük dostluq münasibətləri formalaşdırır.

Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hərbi hissə və bölmələrdə xidmət edən əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin nəticəsidir. Həmçinin qarşılıqlı hörmət və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin xidmətinin əsasını təşkil edir. "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarını əldə rəhbər tutan hərbi qulluqçularımız Vətən torpaqlarının etibarlı müdafiəsində yumruqtək bir olduqlarını nümayiş etdirirlər.

***Bütün bunlar onu deməyə əsas verir ki, Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsi tərəfindən şəxsi heyət arasında həyata keçirilən hərbi-tərbiyəvi işlərdə milli həmrəylik, milli təəssübkeşlik, milli qürur hissləri və Azərbaycançılıq ideyası əldə rəhbər tutulur. Bundan sonra da Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsi tərəfindən əsgərlərin mənəvi-psixoloji durumunun və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində əməli tədbirlərin həyata keçirilməsi davam etdiriləcək ki, hər bir əsgər hərbi andı, Vətənə və xalqa sadiq olsun.***

**Nəriman NƏCƏFOV**
*Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsinin məsləhətçi-psixoloqu*

# Sahibkarın sığortası onun müvəffəqiyyətinə zəmanətdir

*İnkişaf etmiş cəmiyyətə xas olan sərbəst, yaradıcı sahibkarlıq fəaliyyəti ilə yanaşı, onun hər cür risklərdən sığortalanması da vacib tələbat olub, biznesin uğuruna zəmanət verən amillərdəndir. İşəgötürənin öz biznesinə nə dərəcədə məsuliyyətlə yanaşması onun hər yerdə rast gələ biləcək gözlənilməz hadisələrdən vaxtında sığortalanması ilə də bağlıdır. Bu isə sahibkar risklərinin, xüsusilə istehsalatda bədbəxt hadisələrin sığortalanmasına göstərilən diqqətlə ifadə olunur. Buna görə də sahibkarın ən yaxşı mənfəətini onun sığortalı fəaliyyəti ilə də əlaqələndirmək olar.*

Hər bir insanı həyatda itirdikləri çox düşündürür. Söz yox ki, itirilən heç vaxt geri qayıtmasa da, sığorta olunmaqla itirilən maddi nemətlərin dəyərinin geri qaytarılması mümkündür. Sahibkar üçün isə gözlənilməz riskli hadisələr nəticəsində itirilən təkcə onun maddi sərvətləri deyil, həm də bütün biznesin gələcəyi ola bilər. Buna görə də təkcə mənfəət və imic naminə deyil, həm də etibarlı əməkdaşlıq baxımından sahibkarın sığortaya tələbkar münasibəti çox əhəmiyyətlidir.

Sığorta və sahibkarlıq fəaliyyəti bir-birindən asılı olan sahələrdir. Tarixən sığortanın özü də sahibkarların risklərini paylaşmaqla, əslində, bütün iqtisadiyyatın inkişafı üçün çox mühüm bir məsuliyyəti öz üzərinə götürüb. Zaman keçdikcə sığorta da təkmilləşərək sahibkarlıq fəaliyyətinin bütün sahələrində özünü real olaraq hiss etdirən vacib bir tələbat halına gəlib. Naxçıvan Muxtar Respublikasında sığortaya olan tələbat cəmiyyətdə azad bazar sisteminin bərqərar olunması və həyatın bütün sahələrində müşahidə edilən sürətli inkişafla bağlıdır. Muxtar respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyası iqtisadi həyatın bütün sahələri ilə yanaşı, özəl bölmənin də inkişafı üçün hərtərəfli şərait yaradıb. Bu baxımdan sahibkarlara öz mülkiyyətini və biznesini qorumaq, onların uğurlu fəaliyyətini zəmanət altına almaq məqsədi daşıyan icbari sığortalar mühüm əhəmiyyət kəsb edir.

Hazırda fəaliyyətdə olan hüquqi və fiziki şəxslərin qarşılaşa biləcəyi riskli hadisələrdən qorunmaları üçün onların sığorta olunmalarının cəmiyyətdəki sosial əhəmiyyəti nəzərə alınaraq sığorta həm icbari, həm də könüllü formalarda həyata keçirilir.

İcbari sığortalar qanunvericiliyə uyğun olaraq, müvafiq icbari sığorta qanunları əsasında həyata keçirilir. İcbari sığortanın şərtləri və ödənilməsi qaydası, daha doğrusu, sığortalıların və sığortaçının müəyyən edilməsi, hansı hadisələrin sığorta hadisəsi hesab olunması, sığorta məbləği və sığorta haqları (tarifləri), sığorta ödənişi verməkdən imtina əsasları, sığortanın həyata keçirilməsi üçün zəruri hesab olunan digər şərtlər həmin icbari sığortanı tənzimləyən qanunla müəyyən edilir.

Hər bir sahibkar təkcə öz biznes fəaliyyəti üçün deyil, müəssisəsində çalışan bütün işçilərin həyatı və onların cansağlığı üçün də məsuliyyət daşıyır. Bu baxımdan 11 may 2011-ci il tarixdə qəbul olunmuş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu sahibkarlar üçün böyük əhəmiyyət kəsb edir. Bu qanuna əsasən, hər bir sahibkar müəssisəsində işləyən işçilərin icbari qaydada həyatını və sağlamlığını peşə-əmək qabiliyyətinin itirilməsi hallarından sığortalamalıdır. Sığortalı fəaliyyət göstərdiyi sahənin xüsusiyyətlərindən asılı olaraq, illik əməkhaqqı fondunun 0,2 faizindən 2 faizədək sığorta haqqı ödəməklə qanunamüvafiq hesablanmış sığorta məbləği dairəsində sığorta təminatı almış olur. Bu isə hər bir sahibkar baş verə biləcək hadisələrdə işçilər qarşısında məsuliyyətinin sığorta agentliyinə ötürülməsini təmin edir.

Sahibkarlıqla məşğul olanlar üçün daşınmaz əmlakın icbari sığortasının da əhəmiyyətini göstərmək lazımdır. Çünki daşınmaz əmlakın sığortası sahibkarın biznesinin qorunmasına xidmət edir. Daşınmaz əmlak sahibkar üçün gəlir götürmək vasitəsi sayılır. Sahibkarın əmlakına dəymiş zərər həm də onun biznesinə zərər vurur. Misal üçün, əgər yanğın baş verərsə, müəssisənin işi, nəticə etibarilə, istehsal və satış da dayanacaq. İşçilərə əməkhaqqı ödəyə bilməyəcək müəssisə müflisləşəcək. Buna görə də daşınmaz əmlakın icbari sığortası bu cür riskli hadisələrin nəticələrini aradan qaldırmaq, zərər məbləğinin əvəzini ödəmək, fəaliyyəti davam etdirmək üçün çox vacibdir. Bu baxımdan sahibkarlıq fəaliyyəti üçün sığortanın əhəmiyyəti nəzərə alınaraq 24 iyun 2011-ci il tarixdə qəbul olunmuş "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası aparılır.

Sahibkarlıq fəaliyyətində istifadə olunan avtonəqliyyat vasitələri də risk daşıyıcısıdır. Buna görə də ölkəmizdə qəbul olunmuş "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası həyata keçirilir. Bu qanun hər bir sahibkara məxsus avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyəti üzrə sığorta zərərinin sığortaçı tərəfindən ödənilməsinə şərait yaratmaqla onun maraqlarının da müdafiəsinə təminat verir. Belə ki, avtomobil sahibləri avtomobilin hərəkəti zamanı başqasının avtomobilinə və sağlamlığına vura biləcəyi zərərlə əlaqədar çıxılmaz vəziyyətə düşə bilər. Bu, avtomobil sahibini gözləyən ən mühüm riskli amildir. Məhz bu riskin səviyyəsini nəzərə alaraq, avtomobil sahibinin mülki məsuliyyətinin sığortası icbari qaydada tətbiq olunur. Çünki bu zaman dəyə biləcək zərərin hansı məbləğdə ola biləcəyini əvvəlcədən demək çətindir. Məsələn, elə sığorta halları ola bilər ki, bu zaman dəymiş zərər avtomobil sahibinin maddi imkanlarından dəfələrlə çox olsun. Bu zaman mülki məsuliyyətini sığortalamış vətəndaşın qarşı tərəfə vurduğu zərəri onun özü deyil, risklərini həvalə etmiş sığortaçı ödəyir.

Sahibkarlar üçün icbari sığortanın yuxarıda sadalanan növlərinin daha bir üstünlüyü isə onların sosial əhəmiyyətə malik olduğundan qiymətinin eyni məhsulun könüllü sığorta formasına nisbətən daha ucuz olmasıdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti yüksəlməkdə, neçə-neçə yeni istehsal və xidmət müəssisələri yaranmaqdadır. Bu da açılan hər bir müəssisədə sahibkarların əmlakının, eləcə də məsuliyyətinin və çalışan hər bir işçinin sığortalanmasını günün reallığına çevirmişdir.

**Əli CABBAROV**

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na əsasən, məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya yaradılıb. 2014-2015-ci tədris ilində sağlamlıq imkanları məhdud uşaqların cəlb olunduqları Naxçıvan şəhərinin, həmçinin Şərur və Sədərək rayonlarının məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrində uşaqların tədrisdə iştirakına, peşə maraqlarının aşkar edilməsinə, psixoloqlar tərəfindən sağlamlıq imkanları məhdud uşaqlarla fərdi proqram əsasında həyata keçirilən tədbirlərin nəticələrinə dair monitorinqlər, həmçinin sağlamlıq imkanları məhdud uşaqların valideynləri və müəllimləri ilə maarifləndirici görüşlər keçirilib.

Dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planında nəzərdə tutulan müvafiq tapşırıqların icrasının davamı olaraq, dekabrın 26-da Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbində yeni tədris ilində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə növbəti maarifləndirici tədbir keçirilib. Tədbirdə komissiya üzvləri, Ordubad şəhər internat, 1 və 3 nömrəli, həmçinin Nüsnüs və Əndəmic kənd tam orta məktəblərində dərslərə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər. Görüşdə məktəbdə psixoloji xidmətin təşkili, sağlamlıq imkanları məhdud uşaqlarla aparılan işin səmərəliliyini artırmaq məqsədilə psixoloq tərəfindən hazırlanmış fərdi proqramlar əsasında həyata keçirilən tədbirlərlə, müvafiq kateqoriyalı uşaqların tədrisdə iştirakının vəziyyəti və qarşıda duran vəzifələrlə əlaqədar maarifləndirici söhbətlər aparılıb.

Sonda komissiya üzvləri iştirakçıların suallarını cavablandırıblar.

Maarifləndirici tədbirlər davam etdirilir.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

# “Muxtariyyət ili”nin quruculuq ərməğanları

## Şəhərləşən kəndlərimiz


Babək rayon Qahab kəndi


Ordubad rayon Aşağı Əylis kəndi


Babək rayon Güznüt kəndi


Şahbuz rayon Nursu kəndi


Şərur rayon Diyadin kəndi


Babək rayon Naxışnərgiz kəndi


Şahbuz rayon Sələsüz kəndi

***Bu gün Naxçıvan Muxtar Respublikasında şəhər və rayon mərkəzləri ilə yanaşı, qəsəbə və kəndlər də müasir yaşayış məntəqələrinə çevrilib. Muxtar respublikanın hətta ucqar dağ kəndlərində də möhtəşəm quruculuq işləri aparılır. Bu işlər sırasında ən çox diqqəti cəlb edən kəndlərin abadlaşdırılması istiqamətində görülən kompleks tədbirlərdir. Sistemli və düşünülmüş şəkildə aparılan işlərin əsas məqsədi kənd sakinlərinin rahat, firavan yaşayışını təmin etmək, kəndlə şəhər arasındakı fərqi aradan qaldırmaqdır. Bu məqsədə doğru inamlı addımlar atılır.***

***Naxçıvan Muxtar Respublikasının kəndlərində müasir binaların inşa olunması, abad yolların istifadəyə verilməsi Azərbaycan Respublikasının sürətli iqtisadi inkişafının nəticəsi, bariz nümunəsidir. Görülən genişmiqyaslı işlər kənd sakinlərinin torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır, insanların firavan yaşayışını təmin edir.***

***Bütün bunların təməlində muxtariyyətin bəhrələrindən faydalanan Naxçıvanda ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi dayanır.***

## Mədəniyyət müəssisələri
## yeni il şənliklərinə hazırlaşır

***Bir neçə gündən sonra 2015-ci il yurdumuza qədəm qoyacaq. Bu münasibətlə mədəniyyət müəssisələrində Yeni il bayramı ilə əlaqədar müxtəlif tədbirlər hazırlanıb.***

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı dekabrın 29-dan teatrın binasında yeni il şənlikləri keçirəcəkdir. Teatr şənlikləri yeni ilin 1, 2, 3, 4 yanvarında da davam etdirəcəkdir. Yeni il şənliklərində kukla teatrının hazırladığı “Tovuz quşunun nəğmələri” və “Nəğməkar Bülbül” tamaşalarından da parçalar göstəriləcəkdir. Şənliklərdə şən nəğmələr səsləndiriləcək, Şaxta baba, Qar qız və kloun da (məzhəkəçi) uşaqların görüşünə gələcək. Tamaşalar gün ərzində saat $11^{00}$, $13^{00}$ və $15^{00}$-də başlanacaq.

Naxçıvan Dövlət Uşaq Teatrında da maraqlı yeni il şənlikləri keçiriləcəkdir. Balacalar və uşaqlar bu teatrda əvvəlcə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayevin müəllifi olduğu, həm də onun quruluş və musiqi tərtibatı ilə hazırlanmış “Baş tutmayan kələk” tamaşa-kompozisiyasına baxa biləcəklər. Bu tamaşa-kompozisiyada uşaqlar yeni il şənliyinə tələsən Şaxta babanın başına gələn qəribə sərgüzəştlərin şahidi olacaqlar. Bundan sonra uşaqlar üçün şən yeni il mahnıları səsləndiriləcək. Dekabrın 30-dan yanvarın 4-nə kimi keçiriləcək şənliklərin başlama saatı $10^{00}$, $12^{00}$, $14^{00}$ və $16^{00}$-dır.



Yeni il şənlikləri Naxçıvan Dövlət Filarmoniyasında da keçiriləcəkdir. Balacalar burada da Şaxta baba və Qar qızla görüşəcəklər. Filarmoniyada şənliklərin gündüz saat $11^{00}$-də başlanması nəzərdə tutulur.

Naxçıvan Dövlət Film Fondunda isə məktəblilərin qış tətili günlərində onlar üçün Azərbaycan filmləri nümayiş etdiriləcəkdir. Filmlər yanvarın 2-dən başlayaraq saat $11^{00}$-də göstəriləcəkdir.

Balacalar və məktəbliləri yeni il şənliklərində iştirak etməyə dəvət edirik.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Camalova Xəyalə Qadir qızının adına verilmiş 08613371 nömrəli Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1076